QIZLAR

Qara qaşlı, qara gözlü qızların,
Nəğməsinə xoş nəğmələr qarışdı.
Göy ətəkli, bol məhsullu düzlərin,
Sinəsində neçə ürək alışdı.

Qapıb sübhün zərif duman tülünü,
Səhər mehi dağ döşündə itirdi.
Göy kolların qozasını, gülünü,
Bizim qızlar nəfəsilə yetirdi.

Açdı, saçaq-saçaq oldu qozalar,
Göy kolların gümüş teli parladı.
Deyirlər ki, payız fəsli boz olar,
Şimşək çaxdı, göy üç dəfə gurladı.

...Göyə baxdı bu qızların qəşəngi,
Onun şəhla gözlərinin bu odu, –
Xəncər kimi parçaladı buludu,
Güldü günəş, – güldü göylər çələngi.

Al şəfəqlər içdi büllur şehləri,
Yenə kollar ağ örpəyə büründü.
Yaraşıqlı doğma vətən çölləri
İndi daha məlahətli göründü.

Şərqin şöhrəti

QƏLB ŞAİRİ

Fizuliyə ithaf

1

Yarıb daş sinəli qərinələri,
Şerinlə ucaltdın özünə heykəl.
Keçdikcə ömrünün qaynar illəri,
Dünyaya bəxş etdin min incə qəzəl.
Qəlbinin hər teli kamana döndü,
Ahın ağ örpəkli dumana döndü.
Tutuşdun yanar bir eşq atəşinə,
Səməndər sayağı alışdı qəlbin.
Leylinin – Məcnunun təmiz eşqinə
Bir dastan yaratdı o şair təbin...
Bu sevda yolunun yorğunuyam mən,
Füzuli şerinin vurğunuyam mən!..

2

Gözəllər olduqca Məkkən-Mədinən,
Məhəbbət dil açdı hər sətirində.
Cananın zülfünü oxşadıqca sən,
Elə bil məst oldun gülün ətrində.
Qəlbindən bulaqlar axıb süzüldü,
Mirvari sözlərin çin-çin düzüldü.
Dilbər səhərlərin seyrinə daldın,
Ötdü sarı köynək şehli budaqda.
Meylini bir yeni qəzələ saldın,
O da nəğmə olub gəzdi dodaqda.
Səni arzuladı Odlar vətəni,
Lakin Şərq qəlbində gəzdirdi səni.

3

Sən qoca Bağdadın halına yandın,
Orda nəşədən çox dərd, bəla gördün,
Ədalət naminə ellər dolandın,
Xorasan addadın, Kərbəla gördün.
Nur olub süzüldün, su olub axdın,
Lakin oyanmadı o qara baxtın.
Sarbanı olduqca söz karvanının,
Yükün kədər oldu, yükün qəm oldu,
Şair! Öz dövrünün, öz dövranının
Niyə hər naləsi səndə cəm oldu?
Dünyanın sənin tək dərdlisi varmı,
Bir qəlbə bir elin dərdi sığarmı?..

4

Keçdin fırtınalı qərinələrdən,
Füzuli, oyatdı xəlqı əfqanın.
Yaşatdın, hifz etdin qüdrətinlə sən
Öz doğma dilini Azərbaycanın.
Deyirlər anan da ellər adından
Demiş: o ləhcənə, dilinə qurban!
Dörd yüz il keçsə də, şair, yaxşı bax,
Yenə də dilimin keşiyindəsən.
Demə ki, unudub məni bu torpaq,
Sən doğma elimin beşiyindəsən.
Sənə layla deyir göy ulduzları,
Bir də yurdumuzun ceyran qızları.

5

Füzuli! Güldükcə hər yeni səhər,
Min gözəl yetişir gözəlin kimi,
Elin yaratdığı təzə nəğmələr
Dillərdə dolaşır qəzəlin kimi.
Sən günlə çıxırsan, ayla batırsan,
Xalqınla bir durub, birgə yatırsan.
Hər il novruzgülü çıxanda qardan.
Sən də qədəm basıb bizə gəlirsən.

Güldəstə bağlayıb bu ilk bahardan,
Çəmənə çıxırsan, düzə gəlirsən.
Yetər, ay Füzuli, şəbi-hicranın,
Sən qəlb şairisən Azərbaycanın!..

ŞƏRQİN ŞÖHRƏTİ

Böyük ədib
Cəlil Məmmədquluzadəyə

I

Mirzə Cəlil! Mirzə Cəlil!
Doğuldunsa Nehrəmdə sən.
Yüz Nehrəmin dərdi keçdi
Vətəncanlı ürəyindən.

* * *

Baxdın Həsən əmilərə,
Min bir əmin düşdü yada.
Tutuşdun bir qəm oduna,
Min bir qəmin düşdü yada.

* * *

O suvaqlı daxmalarda
Duydun elin ahını sən.
Əllərinə qələm verib,
– Dərdimi yaz! – dedi Vətən.

* * *

Durdun iti qələminlə
Millətinin keşiyində.
Sabirlərin, Səhhətlərin
Səhhətinin keşiyində...

II

Mirzə Cəlil, Mirzə Cəlil!
Sadiq qaldın öz əhdinə.
Ürəyinin hər sözünü
Verdin "Molla Nəsrəddin"ə.

* * *

Lakin o yox, sən diriltdin
Bütün canlı ölüləri.
Qalxdı qəflət yuxusundan,
Cəhalətli Şərq elləri...

* * *

Durdun iti qələminlə
Millətinin keşiyində.
Sabirlərin, Səhhətlərin
Səhhətinin keşiyində.

III

Mirzə Cəlil! Mirzə Cəlil!
Sən güldün də, ağladın da.
Qəmküsara güllə dəydi,
Dönüb qara bağladın da.

* * *

Sadə, şirin ləhcənlə sən,
Dilimizə şöhrət oldun.
Bu hikmətlər ölkəsinə,
Ən dərin bir hikmət oldun.

* * *

Sən də böyük ürəyinlə
Salamladın bu diyarı!
Sən bu gün də dayanmısan
Vətəninin keşiyində.
Sabirlərin, Səhhətlərin
Səhhətinin keşiyində.

SEVİB YAŞATDI

Turan Cavidə

Ona gec də olsa,
Sevinc verdilər.
O, dalğın dayandı, o sevinmədi.
Onu öz fövqündə duran gördülər,
O, göylər qızı tək
Yerə enmədi...

Ona bir şəfəqli
Müjdə verdilər.
Güneylər gülsə də, qüzeylər gülməz.
Ona dünya boyda xəbər dedilər,
Dedi: – Bilirdim ki,
Sənətkar ölməz!..

O, söz hikmətini
Sevib yaşatdı
Dalğın baxışının ifadəsində.
O, nə kirpik sıxıb, sinə boşaltdı...
Şairi ucaltdı iradəsində...

SABİRİM

Mayın son günüdür, doğulduğun gün,
Dağlar tül örpəkli, çiçəklər gülgün.
Ana torpağından qəm oldu sürgün,
Müəzzəm heykəlin güldü, Sabirim,
Bu gün nə sevimli gündü, Sabirim!

Qəflət yuxusundan bizi oyatdın,
Yanar göz yaşını sulara qatdın.
Elin qəm yükünü dəryaya atdın,
Çırpıldı sinənə dalğa, Sabirim,
Bənzədin qocaman dağa, Sabirim!

Əritdin qəlbini sən gilə-gilə,
Bərkdə arxa oldun Mirzə Cəlilə.
Daim qonaq oldun qəmə-nisgilə.
Dərdini çəkənməz dağlar, Sabirim,
Acı gülüşləri ağlar, Sabirim!

Sənətkar sınanar darda, çətində,
Min duyğu oyatdın məmləkətində.
Cəhalət gömüldü hər söhbətində,
Kül altda közərən közdün, Sabirim,
Əsrin tufanına dözdün, Sabirim!

Oyan! Torpağını bir seyr elə sən!
Səni ürəklərdə yaşadır Vətən.
Dünyalar durduqca boy verəcəksən,
Sən ey şerimizin nuru Sabirim,
Qocaman Sabirim, ulu Sabirim!

"1906-1956"

Səməd Vurğuna

İnsan dünyaya gəlir,
Təvəllüdü yazılır.
İnsan dünyadan gedir,
Baş daşında bir tire,
İki rəqəm qazılır...

İnsan dünyaya gəlir,
İllərlə qələm çalır.
Zəkasına baş əyib,
Ulduzlar da alçalır.
İnsan dünyadan gedir.
Onun həyat yolundan
Kiçik bir tirə qalır.

Ömrün uzun yolları!
Ötsə də üstünüzdən,
Siz ey kiçik tirelər!

Zamanın sərt ruzgarı;
Səyyarələr yağsa da
Göylərdən dolu kimi.
Böyüyən bir dühanın
Şərəfli yolu kimi.
Mərmərlərə həkk olan,
Siz ey kiçik tirelər!..
Mənalı insan ömrü,
Heç vaxt getməyir hədər.

HƏSRƏT NƏĞMƏSİ

Müşfiq üçün

Naxçıvan nisgillər açarçısıdır,
Ona qonaq gələn ovudar qəmi.
Ancaq Arazımız el carçısıdır,
Naləsi tutubdur bütün aləmi.

Müşfiqim, üfüqdə gülümsəyir dan,
Tikanlı məftillər qubarlı yara.
Əlin çatmasa da qatar yolundan,
Bir salam göndərdin Sən Şəhriyara.

Yaralı şairin, sözlü ustadın,
Səsi həzin teldə, sarı simdədir.
Şair var, yurdunda qərq olub yadın,
Qəbri də özü tək tilsimlərdədir.

Yəqin ki, örtübdür qərib türbəni,
Yabanı çal-çayır, pəjmürdə yosun.
Deyirlər Cavidim çox sevib səni,
Mən niyə sevməyim, mən niyə susum?

Dərdini xalqıyla bölən şairin,
İlham zirvəsindən şəlalə daşar.
Sözünü deməmiş ölən şairin,
Sözü dildə gəzər, dodaqda yaşar.

Naxçıvan! Bax budur məmləkətimiz,
İstədik onunla bir görüşəsən.
Səni qəlbimizdə gətirmişik biz,
Arazla dərdini tən bölüşəsən...

Şairim, üfüqdən günəş kimi qalx!
Sənətkar susanda millət kar olar.
Təqsırı Arazın üstünə yıxsaq,
Araz bundan da çox zülmkar olar.

Bölünən xalqların müqəddəratı,
Dünya məclisində nəqarət olmuş.
Bəs niyə, bəs niyə azəri adı,
İkiyə bölünüb belə yad olmuş?..

Susma! Odlu şair, alovlu ürək,
Çılğın misraları ayağa qaldır.
Səni yıxa bilməz bir daha külək,
Qayada palıd ol, dəryada sal dur!

Sənətkar sınanar darda, çətində,
Şairlik heç kəsə gəlməsin asan.
Sən indi Əcəmi ziyarətində,
Şərqin əfsanəvi qapısındasan.

Tüklərim ürpəşdi, sanki üşüdüm,
Arazdan deyirəm, qəhərliyəm mən.
Mənim müdrik sözlü cavan Müşfiqim,
Nəqşi Cahanıma sən xoş gəlmisən!

CƏFƏRİM MƏNİM

Ustad sadiq qaldı öz ilqarına,
Milyonlar bir mizrab vurur tarına.
Sənin könül adlı söz diyarına,
Düşübdür yenə də güzarım mənim.

Əlimə ilk qələm aldığım günü
Hürkütdün gözlərdə yatan mürgünü.
Ucalt, göyə qaldır sənət mülkünü,
Cəfərim, Cabbarlım, zəfərim mənim.

Dəryadan dərinsən, göydən qəlbisən,
Bir zümrüd quşusan, uçuşunla sən.
Elxanı, Yaşarı, Almazı sevən,
Sevili sevdirən Cəfərim mənim.

ŞİRMAYI DİLLƏR

Bəstəkar Fikrət Əmirova

Ötün bülbül kimi şirmayı dillər,
İncə səsinizdə həyat eşqi var.
Elin ürəyindən yazır deyirlər,
Ürəyi ellərə bağlı bəstəkar.

Ötün, həzin dillər, səsinizdə mən
Eşidim suların zümzüməsini.
Arazı belinə dolayan Vətən,
Eşit sən oğlunun könül səsini.

Rübabi bir mahnı, lətif bir şeir
Ürəkdə yurd salıb, dodaqda yaşar.
Dibçək şitilləri tez solub gedər,
Torpaqdan göyərən torpaqda yaşar.

İncə muğamların qanadında biz,
Gəlin ümmanların üstündən uçaq.
Bizim el mahnımız, el təranəmiz,
Hələ çox yerlərdə qanad çalacaq.

Qulaq ver qəlbimdən gələn bu səsə,
Mənim əziz dostum, sənə sözüm var:
– Gözlər yaşarmasa, tük ürpəşməsə,
Nə sənət yaranar, nə də sənətkar.

Çal, ey bəstəkarım! Qoy barmaqların
Duyan könüllərin telində gəzsin.
Sənin sənət eşqin, sənət ilqarın,
Dünyanın yüzlərlə elində gəzsin.

SƏSLƏR ZİRVƏSİ

Bəstəkar Qara Qarayevə

Səs – zirvədir,
İncə bəstə cilalıdır.
Sözü varsa,
Kim yaratsa
Əsil sənət halalıdır.
Tər tökübdür,
Puçur-puçur,
Qram-qram,
Şirmayı dillər üstündə
Əziz Qaram!
Bəstələnmiş
Odlu qəlbi daim vurar,
"Yeddi gözəl",
Yeddi gəzər,
Yüz il yaşar, min il durar.
Muğam üstə
Yeni bəstə
Yaradana minnətdaram,
Əziz Qaram!
Bəstə nədir?
Musiqinin bir lələyi.
Qaramızın
Hər ulduzun
Sinəsində var ürəyi..
Qara
Səslər zirvəsidir,
Qüzeyndə dənər qaram.
Qırdın səslər buxovunu,
Əziz Qaram!

Şimşəklərin
Öz ahəngi, öz rəngi var,
Qədəm basın,
Qulaq asın
Gör qəlbində nə cəngi var!
"İldırımlı yollarla" keç!
Hamar yolla
Yoxdur aram,
Əziz Qaram!
Sənin əsil sürətini
Çəkdi Tahir.
Tahir rənglər çalarıdır,
Çünki,
Mahir fırçalıdır.
Ancaq mənim
Nə abım var,
Nə çəhrayım,
Nə də qaram.
Sürətini
Söz üstündə yaradıram,
Əziz Qaram!
Qara vüsal,
Qara həsrət qovşağıdır,
Yağış onun
Bəstə şehi, qövsi-qüzeh qurşağıdır.
Gur Araza deyəndə ki:
Sən kamança,
Mən də taram.
Azərbaycan nəğmə deyir:
Əziz Qaram!
Əziz Qaram!

DAĞ QARTALI

Xalq yazıçısı Süleyman Rəhimova
ithaf

Deyirlər, qocaman qartal uçanda,
Qayalar diz çökər, zirvələr sinər.
İlham vəcdə gəlib qanad açanda,
Sənət meydanında göstərər hünər.

O, öz diyarına, doğma yurduna,
Elə ki, fərəhlə çevrilib baxır;
Xalqın dərya təbi verilib ona,
Coşqun dağ selləri qəlbindən axır.

Elini-gününü sevən sənətkar,
Ucalır bir qartal qanadı kimi.
"Şamo"nu bağrıma basıram, dostlar,
Möhtərəm ədibin övladı kimi.

Yox, yox, titrəməyir qurşun qələmi,
Onun sinəsində min dastan yatır.
Elə bir insanın deyin, nə qəmi,
Sənəti ən canlı epopeyadır?!

Yarat, ey sənətin könül sirdaşı,
Doymaz yaratmaqdan sevdalı ürək.
Ey şair Vurğunun ədib qardaşı,
Ömrün uzun olsun arzularıntək!..

OXU, RƏŞİDİM, OXU

SSRİ Xalq artisti Rəşid Behbudova

Ata – dağ çayı,
Ana – göl.
Övlad – o göldə üzər.
Burada hər ləpə mavi,
Hər dalğa gümüşdən gözəl.

Valideynlər eyni,
Övladlar çeşid-çeşid...
Bir gün
Məcidin
Bir oğlu oldu.
Adını qoydular:
Rəşid!
Anan Firuzənin
Laylasını eşit,
Ay Rəşid!
Atan Məcidin
Gəraylısını eşit,
Ay Rəşid!
Qulağında
Zəngulə qalsın,
Ay Rəşid!
Qurban tarında çalsın,
Ay Rəşid!
Təbiəti gözlərində güldür.
Səsin bülbül,
Ürəyin güldür,
Ay Rəşid!
Oxu, əziz Rəşidim,
Sən oxu,
Mən eşidim,
Rəşidim!
Səsi bahar Rəşidim.
Rəşidim!

Sən oxu,
Mən eşidim.
Eşidim
Səsindəki rəvanlığı.
Ey Cabbar Qaryağdının,
Keçəçi Məmmədin,
Məçidin,
Bülbülün,

Xanın cavanlığı!
Ey bulaq qaynaqlı,
Çay axarlı müğənni –
Küləklər sənə nənni..
Meh – ətirli nəfəsin,
Oxu,
Qoy axsın səsin...
Ata yurdun Şuşada
Min zəngülə bərqərar.
Ürəklərdən süzülür
"Rahab", "Segah",
"Şur", "Qatar".
Təsniflər əlvan-əlvan,
Muğamlar çeşid-çeşid,
Onları birər-birər
Qəlbinə yaz,
Ay Rəşid!..
Şərqilərin duruca,
Səsin boyundan uca.
Cənub göyləri kimi,
Baxışların apaydın.
Bu yurdun, bu torpağın
Uçan nəğmələrini
Bütün dünyaya yaydın...

* * *

"Arşın mal alan!" –
Bu səs, Üzeyirin
Qəlbindən qopan zaman,
Sənimi axtarırmış?
Danış, ay Rəşid, danış!
Sən şərqilərin
Uçuş meydanlarına
Qədəm qoydun ilk dəfə...
Görmədiyin yerlərə
Ekranda seyrə çıxdın.
Sənət ilahəsinin

Şumşad əlini sıxdın.
Öpüb bağrına basdı
Tar səni, qaval səni.
Yeddi möcüzədən biri
"Tac-mahal" səni.
Hindistan! –
Əfsanəvi
Gözəlliklər diyarı.
Bombeyin , Kəlküttənin
Əsrarəngiz baharı
Qarşıladı
Çəmənli, şəhli səni.
Uçurdu min fərəhlə
Qocaman Dehli səni.
Oxu, əziz Rəşidim!
Sən oxu,
Mən eşidim,
Rəşidim!
Dünay sahillərində
"Valslar kralı" Ştrausun
Doğma elində

Sən kükrədin,
Sən axdın.
Sən axarlı səsinin
Cilovunu buraxdın.

Venesiya! –
Su üstə üzən şəhər.
Səni
Neft daşları qədər,
Mehriban
Bir bala kimi,
Su üstə üzən
Qala kimi
Qarşıladı.
Dodaqlardan düşmədi:

Azərbaycan,
Bakı,
Bir də Rəşidin adı!
...Leonardo da Vinçinin
Qədirbilən vətəni.
Florensiya –
O gözəllər yurdu
Bağrına basdı səni.
Ulduzlu göylər altında
Sən qaranquş oldun.
Hər nəğmən elə bil ki,
Lap yenidən doğuldu.
Doğuldu qol atmağa,
Doğuldu
Neçə milləti
Güldürüb,
Ağlatmağa!..

Adamı sıxır qürbət.
Neyləmək,
Muğamat – kədərdir,
Şirin şərqilər –
Şərbət.
O şərbət piyaləsi
Dəydikcə hər dodağa –
Canını
Verər ellər
Müğənniyə sadağa.
Oxu, əziz Rəşidim!
Sən oxu,
Mən eşidim.
Rəşidim!

Qahirə göylərindən
Qalxdı bulud rübəndi.
Səsin kimi ucaldı
Asuan bəndi.

Qədim ehramlar yurdu,
Saçlarını oxşadı
Şanə-şanə, ay Rəşid.
"Vidadi xəstədən
Bağdad elinə
Sən yetirdin
Bir nişanə", ay Rəşid!

Qarlı Fin torpağına
Odlu nəğməylə getdin.
Uzaq Şərqin
Tayqa meşələrində
Bir çinar kimi bitdin.
Moldav gözəllərinə
Güldən çələng toxudun.

Neçə eldə, neçə dildə
"Arşın mal alan" oxudun...
Oxudun şirin-şirin,
Kükrədin
Dalğa-dalğa.

Səsinə can sadağa!
Oxu bir də, Rəşidim!
Sən oxu,
Mən eşidim,
Rəşidim!

NƏĞMƏKAR QIZ

Unudulmaz müğənnimiz Şövkət xanım Ələkbərovaya həsr edirəm

Ötən bulud, əsən külək, coşan dəniz, dinlə bir,
Həsrətini çəkdiyim qız şirin-şirin oxuyur.
Onun səsi yerin-göyün ürəyini dindirir.
Görəsən o oxuduqca nə düşünür, nə duyur?

Nəqarət

Pəncərəmdən aymı baxır, yoxsa o qız, görəsən?
Yoxsa onun nəfəsidir ləpələrə toxunan?
Sevdalı qız, gur səsinlə bir də oxu, bir də sən,
Yoxsa mənim saf eşqimdir bu nəğmədə oxunan?

Çox çıxmıram gül eyvana, duyuq düşər qonşular,
Sən susarsan, Ay gizlənər, bulud çökər qəlbimə.
Mən cavan bir sənətkaram, sənsə gözəl nəğməkar,
Bizim həyat nəğməmizdir oxuduğun bu nəğmə.

BEŞİK BAŞINDA

Bəstəkar Şəfiqə Axundovaya ithaf edirəm

Xəzər sahilindən bir qədər kənar
Ətrafı yam-yaşıl bir aynabənd var.
Orda suyu şirin, sadəcə bir qız,
Piano önündə oturub yalqız,
Baxıb pəncərədən nə isə anır.
Qəlbində ən zərif bir hiss oyanır...
Ayrılıb bir anlıq düşüncələrdən
Şirmayı dillərə əl gəzdirərkən
Ürpəşir bədəni, yaşarır gözü...
Oxucum, belədir, sənətkar özü.
Yeni bir ilhamla yaşayan zaman
Odlu bir hiss keçir onun canından.

Odur bax, o çalır... açılır bu dəm
Gözlərim önündə yeni bir aləm.
Bakı gecələri... nur səpir qəmər,
Gümüş rübəndinə bürünmüş şəhər.
Yaşıl bir eyvanda, beşik başında
Bir ana ömrünün cavan yaşında
Əziz körpəsinə dedikcə laylay,

Zərli tellərilə o sevdalı ay
Oxşayır körpəni bir ana kimi.
Layla od aşiqi-pərvanə kimi,
Dolaşıb beşiyin başında yenə,
Yayılır xəzərin dərinliyinə...

Ayrılıb bir anlıq düşüncələrdən
O bəstəkar qızı seyr edirəm mən –
O solğun görünür, gözləri dolğun,
Yuxusuz gecələr olsa da yorğun.
Lakin yaratdığı şirin nəğmələr
Ona müqəddəsdir gəncliyi qədər.
O yenə çalırdı... Sevindiyimdən,
Vurulub o qızın ruhuna qəlbən,
Dedim: – Dinlə məni, ey təbi rəvan!
Nədir yaratdığın bu gənc yaşında? –
Dedi: – Aylı gecə, yaşıl bir eyvan,
Bir ana laylası beşik başında.

TƏZƏ ÇİÇƏKLƏR

General Həzi Aslanovu əziz xatirəsinə

Seyranım olduqca Dağüstü parkı,
Fikrimi cəlb edir dilsiz bir məzar.
Deyirəm, ey doğma vətən torpağı,
Sinəndə nə qədər oğul dərdi var...

Küləklər üstünə yarpaq sovurur,
Bəzən duman düşür bu tək məzara.
Bəzən qızmar günəş onu qovurur,
Bəzən də bu türbə qərq olur qara...

Nəmli köynəyini sıxır buludlar,
Keçir yaz günləri, payız xəzanı.
Soruşur təbiət, soruşur bahar:
– Ellər bahadırı mərd Həzi hanı?

Hanı adı dildə, qüdrəti eldə,
Şöhrəti aləmdə dolaşan Həzi?
Bu səsə qoşulub qanadlı yel də,
Dolaşır Qoşqarı, gəzir Kəpəzi...

Qəlbimdən səs gəlir, duyun, eşidin!
Yurdumun qoynunda o, əziz yatır.
Xəbəri dillərdə gəzən igidin,
Özü torpaq altda xəbərsiz yatır.

...Keçir gözlərimdən döyüş meydanı,
Ölüm qılınc çəkib, həyat dardadır.
O, tank alayının baş komandanı,
Yenə də birinci sıralardadır.

Baş-başa gəldikcə zirehli tanklar,
Ulduzlar titrəşir mərmi səsindən.
Həzi qabaqdadır, qabaqda, dostlar!
O tank hücumunu seyr edirəm mən.

Döyüşdə hər anın hökmü başqadır,
Bir polad sipərə çevrilir bədən.
Övladı bir vətən eşqi yaşadır,
Vətənsiz övlad yox, övladsız vətən .

Bir-bir azad olur kəndlər, şəhərlər,
Qalxır barıt iyi, səngiyir ara.
Qəlbə dərd artıran acı bir xəbər,
Yayılır bir anda bizim dağlara:

– Həzi öz canını...
Yox, yox, yalandır!
O, yenə şığıyır düşmən üstünə.
Qəhrəman ölərmi, o qəhrəmandır,
Eşqi ürəklərdə yaşayır yenə.

Ölməmiş, yaşayır o, əslində də,
Ona mahnı deyir sərin küləklər.
İlin yaz fəslində, qış fəslində də,
Üstündə sayrışır təzə çiçəklər...

HEYKƏL

Heykəltəraş Cəlal Qaryağdıya ithaf edirəm.

Paytaxtım üstündə bir zirvə qalxdı,
Zirvədə Nəriman baxışları var.
O müdrik insanın ucalıq taxtı,
Həmişə, hər zaman yüksəkdə durar.

Böyük sənətkarın mahir əlləri,
İncəlik, zəriflik naxışlarıdır.
Bəlkə Nərimanın dalğın nəzəri,
Bizim Qoca Şərqin baxışlarıdır.

Deməyin, Nəriman getdi dünyadan,
O, Şərqə ən böyük havadar oldu.
Onun heykəlini göyə ucaldan,
Sehrkar barmaqlı Qaryağdı oldu.

ƏSRİN SON GÜNÜNƏ BƏRABƏR GEDƏK

Şair dostum Mir Mehdi Seyidzadəyə

Bizə deyirlər ki, gözəl dostdular.
Şairim, onlara bircə sözüm var:
– Dünya belə olub əzəldən bəri,
Təmiz ürəklilər daim dost olar!..

Şair var, desə də gözəl şeirlər,
Onu insan kimi sevmir bu ellər.
Lakin əziz dostum, hər yerdə sənə,
Həm insan, həm də ki, şair deyirlər...

Şərin töküldükcə min bir varağa,
Bütün gənc nəslimiz qalxır ayağa.
Demə, qocalmışam bu xoş günümdə,
Saçların gümüşdür Ağa, ay Ağa!

Hanı adı dildə, qüdrəti eldə,
Şöhrəti aləmdə dolaşan Həzi?
Bu səsə qoşulub qanadlı yel də,
Dolaşır Qoşqarı, gəzir Kəpəzi...

Qəlbimdən səs gəlir, duyun, eşidin!
Yurdumun qoynunda o, əziz yatır.
Xəbəri dillərdə gəzən igidin,
Özü torpaq altda xəbərsiz yatır.

...Keçir gözlərimdən döyüş meydanı,
Ölüm qılınc çəkib, həyat dardadır.
O, tank alayının baş komandanı,
Yenə də birinci sıralardadır.

Baş-başa gəldikcə zirehli tanklar,
Ulduzlar titrəşir mərmi səsindən.
Həzi qabaqdadır, qabaqda, dostlar!
O tank hücumunu seyr edirəm mən.

Döyüşdə hər anın hökmü başqadır,
Bir polad sipərə çevrilir bədən.
Övladı bir vətən eşqi yaşadır,
Vətənsiz övlad yox, övladsız vətən .

Bir-bir azad olur kəndlər, şəhərlər,
Qalxır barıt iyi, səngiyir ara.
Qəlbə dərd artıran acı bir xəbər,
Yayılır bir anda bizim dağlara:

– Həzi öz canını...
Yox, yox, yalandır!
O, yenə şığıyır düşmən üstünə.
Qəhrəman ölərmi, o qəhrəmandır,
Eşqi ürəklərdə yaşayır yenə.

Ölməmiş, yaşayır o, əslində də,
Ona mahnı deyir sərin küləklər.
İlin yaz fəslində, qış fəslində də,
Üstündə sayrışır təzə çiçəklər...

HEYKƏL

Heykəltəraş Cəlal Qaryağdıya ithaf edirəm.

Paytaxtım üstündə bir zirvə qalxdı,
Zirvədə Nəriman baxışları var.
O müdrik insanın ucalıq taxtı,
Həmişə, hər zaman yüksəkdə durar.

Böyük sənətkarın mahir əlləri,
İncəlik, zəriflik naxışlarıdır.
Bəlkə Nərimanın dalğın nəzəri,
Bizim Qoca Şərqin baxışlarıdır.

Deməyin, Nəriman getdi dünyadan,
O, Şərqə ən böyük havadar oldu.
Onun heykəlini göyə ucaldan,
Sehrkar barmaqlı Qaryağdı oldu.

ƏSRİN SON GÜNÜNƏ BƏRABƏR GEDƏK

Şair dostum Mir Mehdi Seyidzadəyə

Bizə deyirlər ki, gözəl dostdular.
Şairim, onlara bircə sözüm var:
– Dünya belə olub əzəldən bəri,
Təmiz ürəklilər daim dost olar!..

Şair var, desə də gözəl şeirlər,
Onu insan kimi sevmir bu ellər.
Lakin əziz dostum, hər yerdə sənə,
Həm insan, həm də ki, şair deyirlər...

Şerin töküldükcə min bir varağa,
Bütün gənc nəslimiz qalxır ayağa.
Demə, qocalmışam bu xoş günümdə,
Saçların gümüşdür Ağa, ay Ağa!

"Ayaz"ın düşmənlə durmuş üz-üzə,
"Nərgiz"in Nərgizlər yetirib bizə.
Mənim Dilşad qızım, sevimli balam
Oxşamaq istəyir igid Nərgizə...

Yazdığın hər incə, hər gözəl şeir,
Neçə kənddən deyir, şəhərdən deyir.
Bütün gül balalar verib səs-səsə
Sənin hər şerini əzbərdən deyir.

İlham vəcdə gələr, söz qanad çalar,
Ömrünü sənətə verən ucalar.
Qoy deyim, bu söz də bir məqsəd olsun:
– Gəncləşər gənclərlə gəzən qocalar!..

Çarpdıqca sevinclə sinəmdə ürək,
Qoy şerim başına səpsin gül-çiçək.
Mir Mehdi, qolunu keçir qoluma,
Əsrin son gününə bərabər gedək.

MƏNİM TEATRIM

Mənim teatrım!
Xoş nəfəsinlə,
Oxşa ruhumuzu bahar yeli tək.
Qəlbə qida verən incə səsinlə,
Aç bizə qoynunu gülümsəyərək.

Gəlinə bənzəyir duruşun sənin,
Qoy qəlbin ellərlə düz ilqar olsun.
Sənət yürüşüdür yürüşün sənin,
Sənə bu yürüşdə uğurlar olsun.

Duyduqca yadıma gör nələr düşür;
Qoynunda birləşir dünya sənəti.
Çexov Şekspirlə gəlib görüşür,
Cavid salamlayır Nazim Hikməti.

Mənim teatrım!
Təmiz eşqimi,
Sənə bağlamışam, mənə gərəksən.
Abbas Mirzə kimi, Ülvilər kimi,
Odlu sənətkarlar yetirəcəksən!

Naxışlı tağların hörmə-hörmədi,
Axışıb baxacaq paytaxtım sənə.
Nə Cəfər, nə Vurğun səni görmədi,
Onların gözüylə qoy baxım sənə.

Cəfər yoxdusa da, onun "Almaz"ı,
Qoy öz əlləriylə açsın pərdəni.
Ağsaçlı Vurğunun sənət dünyası,
Sevdalar qoynunda gəzdirsin səni.

Sənə bağlamışam odlu könlümü,
Görüm bu gülzarın heç vaxt solmasın.
Elə ki, zəng oldu, işıq söndümü,
Bircə stulun da qoy boş olmasın.

Mənim teatrım!
Qoy səhnəmizdə,
Əsrin övladları izini görsün.
Buruqlar önündə, məhsullu düzdə,
Özünü axtarıb, özünü görsün.

Mənim teatrım!
Səsimi dinlə:
Yeni qəhrəmanlar gətir meydana,
Bu ilk gəlişinlə, xoş qədəminlə
Sənət müjdəsi ver Azərbaycana!

MƏNALI GÜLÜŞ

Sabit Rəhmana

Şirin gülüşlərlə gəl güldür bizi,
Çox duzlu-məzəli bir aləmin var.
Sabit! Cəfər kimi sev səhnəmizi,
Sənin öz nəfəsin, öz qələmin var.

"Toy"un səhnəmizə qədəm qoyalı,
Neçə Kərəmova toy tutub keçdin.
Səhnə üçün yazdıqca əli sayalı,
Gülüşü xoşladın, gülüşü seçdin.

Pərdələr açıldı, pərdələr endi,
Bizim "Nişanlı qız" gəzdi səhnədə.
Beşi pərt oldusa, yüzü sevindi,
Qələmin çoxunu əzdi səhnədə.

Uymadın şöhrətə, uymadın ada,
Dedin, səhnəmizə yazmaq gərəkdir.
Deyirlər, bu günlər təzə binada,
Dostun Əliqulu evlənəcəkdir?!

Nə deyim, çox gözəl ustadımızsan,
Dərdini dostlarla bölüşən oldun.
Boş-boş nitqlərlə ucalmaz insan,
Döşünə döymədin, döyüşən oldun.

"Xoşbəxtlər" yüz dəfə açdı pərdəni,
"Aydınlıq" aydınlıq gətirdi bizə.
Yürüşə səsləyir "Koroğlu" səni
Sənət müjdəsi ver ellərimizə.

Gah Mirzə Qərənfili, gah Mindillini,
Gah usta Segahı dilə salmısan.
Bəlkə daddığımız bu şirinliyi,
Baban Səbuhidən sən borc almısan?..

Gülüş şərbətindən içdikcə ellər,
O qaynar bulağın gözü sən oldun.
Çoxuna məzhəkə yazan deyirlər,
Bunun ən yaxşısı, düzü sən oldun.

MÖHSÜN SƏNANİYƏ

İthaf

Möhsün, bu xoş gündə demə qocaldım,
Ömrün səhnəmizə gətirib bahar.
Həqiqi sənətlə daim ucaldın,
Sənətkar qədrini bilər, sənətkar.

Qəlbini ellərə bağlamayanlar,
Yüz il vəz etsə də, el onu udmaz.
Səndə xalqımızın ər qeyrəti var,
Bu vətən torpağı səni unutmaz.

Çıxaraq sənətin söz vadisinə,
Bir çələng hörmüşəm güldən-çiçəkdən.
Bu yetmiş baharlı əziz günündə,
Ərməğan verirəm sənə ürəkdən.

Sənət çələngini gəzdir başında,
Kim buna xor baxsa qəlbi qaradır.
Qoy onlar bilsin ki, bizim dünyada,
Ən böyük məhəbbət sənətkaradır.

Sənətin ecazkar gözəlliyindən,
Qənirsiz gözəl də min ilham alır.
Həzin rübabını basıb bağrına
Sənətin eşqinə mahnılar çalır.

Nə xoşdur, xoş gündə nəğmələr demək,
Mən şeir bağında ötən bir quşam.
Möhsün, sənət adlı bir sərvsən ki,
Sənin bulağına gəlib qonmuşam.

Mən səni görürəm, görürəm yenə,
Böyük Səbuhinin söz sənətində.
Yaşıl alaçığa yaxınlaşırsan,
İgid Heydərbəyli öz surətində.

Mən səni görürəm beşinci ildə,
Qəhrəman Eyvazın timsalı kimi.
Mən səni görürəm Səməd Vurğunun
"Vaqif"də Eldar tək qartalı kimi.

Mən səni görürəm, görürəm, ey dost,
Uzaq sahillərdə Mixaylo kimi.
Qanlı yağılara divan tutursan,
Gözündə Abşeron, qəlbində Bakı.

Mən səni görürəm, ey şofer oğlan,
Təcili yardımı sürüb gəlirsən.
Hərdən Güliçkaya baxıb qıyğacı
Gah acı, gah şirin söhbət edirsən.

Mən səni görürəm, görürəm, Möhsün,
Yüzlərlə surətlər silsiləsində.
Demə qocalmışam – xoş keçir ömrün,
Bir sənət eşqi var sənin səsində.

Möhsün, dostlar kimi açıq ürəklə,
Səni təbrik edir, alqışlayıram.
Sənə bu şerimi güldəstə kimi,
Bu əziz günündə bağışlayıram.

YETMİŞ İL BİR SİNƏDƏ...

Qurban Pirimov 70 il bir tarda çalmışdır

Yetmiş il bir sinədə,
Yurdumuza car oldun.
Sədəf tarlar içində,
Sən Qurbana yar oldun.

Soruşur el-elatın:
Hanı Çoban Bayatın?

Qoca tarzən susanda,
Simin siminə dəydi.
Haray saldı Qarabağ,
Kəpəz başını əydi.

Sarı simin həzindi,
Sahibini gəz indi...

Barmağının istisi,
Pərdələrdə qalıbdı.
Görən son dəfə səndə,
Hansı muğam çalıbdı?

Kaş tozunu siləydim,
Onu bircə biləydim.

İncə pərdə, zərif xal,
Həzin mizrab hardadı?
Həqiqətin, Bülbülün
Xoş səsi bu tardadı.

Susma, danış barı sən, –
Azərbaycan tarı, sən.

Qəm eləmə, qoca tar,
Bəmin, zilin cavandı.
Hansı tar şura gəlsə
Bil ki, sənin havandı.

Azərbaycan tarı, sən,
Qurbansız qaldı tarım...

BİZİM DƏ HƏYƏT VAR...

"Bizim həyət" şerinin müəllifi
Teymur Elçinə nəzirə

Ailədə biz üçdük,
Təzə binaya köçdük.

Bir həyət dolu uşaq,
Səslər çıxdı boğuşaq...

Həyət-baca qaynadı,
Oğul-uşaq oynadı.

Yıxıldı: "Vay!" – eşitdik,
Hərdən giley eşitdik.

– Oğlunun qulağın bur,
Qızın qızımı vurur.

Analar xeyli dindi,
Tənbeh atını mindi...

İllər baş alıb getdi,
Yenə həmin həyətdi.

Böyüyüb bir parası,
Gözümüzün qarası.

Artıq həyətə onlar,
Enməyə utanırlar.

Təzələri doğulub,
Həyət səsə qərq olub.

İndi onlar qışqırır,
Çər-çəpərləri qırır.

Giley gəlməyir yenə,
Əziz balamdan mənə.

Bax burda doğulan,
Oğlumun da oğlu var.

Gənc qızlar ana oldu,
Ana qaynana oldu.

Oğullar ata oldu,
Ata qaynata oldu.

Nəslimiz-əbədiyyət,
Yenə qaynayır həyat...

GÖYÇƏ GÜLÜ

Yenə gül əyyamı, bahar fəslidir,
Çiçəklər sayrışır, güllər öpüşür.
Təbiət insanı sanki məst edir,
Yarpağa şeh qonur, qəlbə od düşür...

Açır gözlərini sevdalı səhər,
Quşların xoş səsi qulağa gəlir.
Çiynində telli saz aşıq Ələsgər,
Enib kənd içindən bulağa gəlir.

Hamı ona baxır yollar boyunca,
Qıvrım çal papağı yenə qaşında.
Qızlar, ceyran qızlar əlində dolça,
Gülüşür, qaçışır çeşmə başında.

Gedir heyran-heyran cavan Ələsgər,
Odlu ürəyindən süzülür şeir.
(Bir az ayaq saxla, dayan, Ələsgər,
Qızlar şerini əzbərdən deyir?..)

"Durum dolanım başına,
Qaşı-gözü qara Ceyran.
Həsrətindən xəstə düşdüm,
Eylə dərdə çara, Ceyran".

Qızlar yenə bu gün xoş səhər çağı,
"Sarı tel" üstündə eləcə ötdü;
Açıldı aşığın qaşı-qabağı,
Elə bil çiyindən düşdü qəm yükü.

Gözələ baxmaqdan savab şey nə var?
Birdən sevdiyi qız gözünə dəydi.
Qızlar, arif qızlar tez yayındılar,
Ceyran yaşmaq tutub başını əydi.

Tək qovaq altında qoşa sevgili,
Dayandı bir qədər sanki lal kimi.
Əsdi Ceyran qızın dodağı, dili,
Əsdi ovçu görmüş bir maral kimi.
– Ceyran!...
O, dinmədi.
– Ceyran, necəsən?
Gecələr sübhədək od tuturam mən.
Qırma Ələsgərin sınıq könlünü,
Mən sənə yazmışam "Göyçə gülünü".
Onu əzbər bilir bu doğma ellər, –
Deyib bu sözləri aşıq Ələsgər,

Bir telli sazına, bir qıza baxdı,
Qara qaş altından sıx kirpik çalan,
Yazıq Ələsgəri sevdaya salan,
O bir cüt ilahi ulduza baxdı...

Yanırdı ceyranın al yanaqları,
Bulağın gözütək qaynardı gözü.
O bülbül nəvalı gül dodaqları,
Söyləyə bilmirdi bir kəlmə sözü.

Ceyran dinməsə də irəli gəldi,
Üzünü söykədi sədəfli saza.
(Ah, o necə qəşəng, necə gözəldi,
Alqış, canlar alan bu sərvinaza).

Alqış, Ələsgərin məhəbbətinə,
Alqış, sözə alqış, ülfətə alqış!
Alqış, telli sazın şeriyyətinə, –
Bu incə, bu ülvi sənətə alqış!...

Onlar sarıldıqca sarmaşıq kimi,
Yarpaqlar astaca xışıldaşırdı.
Ələsgər ən odlu bir aşıq kimi,
Sazını çiyindən yana aşırdı.

Saz necə dilləndi gör sinəsində,
Güldü, telli sazın telləri güldü.
Aşıq Ələsgərin zəngüləsində,
Sanki Azərbaycan elləri güldü.

Əli teldə gəzdi, xəyalı eldə,
Eşqi də, ruhu da necə təzədi!
Hər yeni qoşmayla sevinir dil də
Sözlər sədəf kimi sazı bəzədi...

Dillən, a telli sazı, a sədəfli saz,
A mənim bağrımı şan-şan eyləyən.
Qəlbimi telinə tel bağla bir az,
Aşıq Ələsgəri vəsf edirəm mən.

Qoy başı çalmalı silsilə dağlar,
Ona səcdə qılıb, başını əysin.
Çiçəyi sayrışan yaşıl budaqlar,
Sazına söykənsin, telinə dəysin...

...Saz bəmə düşürdü bax yavaş-yavaş,
Ələsgər çevrilib Ceyrana baxdı.
Qızınsa gözündən iki damla yaş,
Süzülüb şeh kimi üzünə axdı.

Dağlara, daşlara dil verən insan,
Görün necə dilsiz, necə lal oldu?
Yaş töküb ağladı vəfalı Ceyran,
Gözlər dolmuş bulud, qaş hilal oldu.

Ceyran öz dərdini danışdı ona:
– Atam məni verir bir bəy oğluna!...
Bu söz ən dəhşətli ildırım kimi,
Eşqin heykəlini vurub uçurdu.
Ələsgər dağ kimi, sıldırım kimi,
Xəyala qərq olub, sükutla durdu.

Söz var ki, insana qol-qanad verər,
Onu qartal kimi göyə ucaldar.
Söz də var, səsində kaman inləyər.
Qəlbə dərd artırıb, ömür qocaldar.

Titrədi dağlardan ağır Ələsgər,
Taqətsiz qolları yanına düşdü.
Təzanə dəymədən qırıldı tellər,
Sazı da çiynindən yerə sürüşdü.

Qovaq dilə gəldi, çay dilə gəldi,
Qarağat kolları dedi astadan:
– Ələsgər hamıdan mərddi, gözəldi,
Ona vəfalı ol, əl çəkmə, Ceyran!...

Çeşmə gileylədi, süzülüb axdı,
Bilmirəm çox dedi, yoxsa az dedi.

Durna qanadından lələk buraxdı;
– Dərdini ellərə oğlan, yaz! – dedi.

Ceyranın başından sürüşdü cuna,
Birdən sədəflini bağrına basdı.
Qırılmış simləri yığıb ovcuna,
Sazı Ələsgərin çiynindən asdı.

Ceyranım qorxurdu el tənəsindən
Üzünü bu dəmdə mahala tutdu:
"Ellər! Ələsgəri çox sevirəm mən".
Yox-yox, deməyin ki, Ceyran unutdu!...

"Mən onu sevirəm yaz günəşitək,
Lakin nə eyləyim, ata hökmüdür".
... Bu ara dil açdı hər gül, hər çiçək:
"İnsana bir dəfə verilir ömür!"

"Doğrudur, bir dəfə ...
İnsafsız atam!
Bizim eşqimizi o qoydu nakam!"

Qəlbində iztirab, gözündə kədər,
Yalnız bu sözləri dedi Ələsgər:
– Məcnunam, gəzirəm Leyli çölünü,
Əlimdən aldılar "Göycə gülünü".
Qoy sazım ağlasın, sözüm ağlasın,
Hüsnünün aynası gözüm ağlasın...

Ələsgər Ceyrana elə baxdı ki,
Deyəsən bu görüş son görüş idi.
Odlu göz yaşı da elə axdı ki,
Çiçəklər üşüdü, güllər üşüdü.

Getdi "Göycə gülü", o gözəl pəri
Yağsız ürəyinin yağı töküldü.
"Bir gül bəsləyirdim yardan ötəri,
Xəzan vurdu, gül yarpağı töküldü...".

XƏZƏRİM

Sinən bir ağ gümüşdü, gümüşdü,
Gözüm hüsnünə düşdü, nə düşdü.
Sahilində işıqlar qızıldı,
Yel dəydi, göy köynəyin sızıldı.
Suların çin-çin oldu, Xəzərim,
Ləpən göyərçin oldu, Xəzərim.

Demə, qoca Narginim qaladı,
Dəniz meşəsində o, taladı.
Mayakların qızarır nar kimi,
Sinən necə soyuqdur qar kimi.
Ağ dalğan ağ ayıdır, Xəzərim,
Hər ləpən qağayıdır, Xəzərim.

Ürəyimdə söz yatır suyunca,
Dinlə məni, dinlə sən doyunca.
Sularına mirvari düz ki, sən,
Paytaxtımın hüsnünə güzgüsən.
Dodaqların duzludur, Xəzərim,
Göylərin ulduzudur, Xəzərim.

Söylə görüm, ay dəniz, ay dəniz,
Çimibmi göy sinəndə Ay, dəniz?
Ulduzlar xalınmıdır gecələr,
Dalğalar yalınmıdır gecələr?
Saf qoynuna düşübdür güzərim,
Xəzərim, ay Xəzərim, Xəzərim...

BİZİM DAĞLARDA

Ay ellər, min zinət gördüm,
Bizim dağlarda, dağlarda.
Bir səfalı ömür sürdüm,
Bizim dağlarda, dağlarda.

Yurdumun şah vüqarı var.
Daşkəsəni, Qoşqarı var.
Babaların ilqarı var,
Bizim dağlarda, dağlarda.

Gələr yayda qonaqları
Məskən edər yaylaqları.
Daşar Narzan bulaqları,
Bizim dağlarda, dağlarda.

Dan yerini oyatmışam,
Dağlar deyə yaratmışam.
Mən İslamam, boy atmışam,
Bizim dağlarda, dağlarda.

SƏMƏNİ

Havada sazaq var, havada şaxta,
Mənsə düşünürəm ilk bahar haqda.
Anamın qoyduğu bir göy səməni,
Bahardan yazmağa çağırır məni.

Baxıram, baxıram göy səməniyə,
Dönür nəzərimdə yaşıl zəmiyə.
...Odur, dan sökülür, nur səpələnir,
Gözümdə zəmidir, hey ləpələnir...

Sevgilim toplayır əlvan gül-çiçək,
Çiçəkdən-çiçəyə qonur kəpənək.
Gülür kol dibindən bənövşə, nərgiz,
Baharla qol-qola yeriyirik biz.